**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№355/5** **13 aprel 2023-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə dəyişiklik edilməsi barədə**

Auditor xidməti bazarında nizamnamə kapitalının formalaşdırılmasının təsdiqi, əmlak və digər mülkiyyət obyektlərinin qiymətləndirilməsinin düzgünlüyünün auditor rəyi ilə təsdiqi ilə əlaqədar təsərrüfat subyektlərində auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması, habelə ölkə ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin təsdiq edilmiş minimum hədlərinin müvafiq bəndlərinə dair Auditorlar Palatasının üzvləri tərəfindən daxil olmuş müraciətləri nəzərə alaraq Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə dəyişiklik edilməsi barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə edilmiş dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Minimum hədlərin tətbiqi auditor təşkilatları və sərbəst auditorlar üçün 2023-cü il 13 aprel tarixindən məcburi hesab edilsin.
3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə edilmiş dəyişikliyin Palatanın üzvlərinə göndərilməsi təmin edilsin.
4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və dəyişiklik edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nin mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**